# Qəbələdə sosial-iqtisadi inkişafın yeni üfüqləri

## 2016-cı ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin hesabat məruzəsi

**Qəbələdə sosial-iqtisadi inkişaf baxımından, abadlıq və quruculuq işləri sahəsində mühüm nailiyyətlər qazanılmışdır. Dağlar diyarının bügünkü inkişafı insanlarımızın hər şeyə qadir olduğunu sübut edir.**

*İlham ƏLİYEV.*

(Əvvəli 7-ci səhifədə).

Sərəncamın icrası ilə əlaqədar olaraq rayonda 2016-cı ildə 2184 nəfər kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət büdcəsinin vəsaiti hesabına 1705949 manat yardım hesablanmış və həmin vəsait ödəniş kartları vasitəsilə torpaq sahiblərinə çatdırılmışdır. Bundan əlavə rayon komissiyası tərəfindən cari ilin sentyabr ayında təkrar əkinlərə görə məhsul istehsalçılarına 17269 manat yardım hesablanmış və həmin vəsaitin yaxın vaxtda məhsul istehsalçılarına çatdırılması təmin ediləcəkdir. Bundan əlavə toxum istehsalı ilə məşğul olan fermerlərə 151773 manat subsidiya verilmişdir. Güzəştli qaydalarla 458 nəfərə 1337 ton gübrə, 231 nəfərə isə 3673 litr pestisid verilmişdir.

Rayonda taxılçılıq kənd təsərrüfatının əsasını təşkil edir. 2016-cı ilin məhsulu üçün 2015-ci ilin payızında 22510 hektar sahədə payızlıq dənli bitkilər əkilmişdir ki, onun da 16010 hektarı buğda, 6500 hektarı isə arpa sahələridir.



Ötən il sahələrdən 71081 ton məhsul istehsal edilmişdir. Hər hektardan məhsuldarlıq 31,6 sentner olmuşdur.

Torpaq sahibləri tərəfindən 2016-cı ildə 1054 hektar kartof, 1992 hektar tərəvəz, 42 hektar bostan məhsulları, 1103 hektar dən üçün qarğıdalı, 50 hektar günəbaxan əkilmişdir. Həmin sahələrdən 12648 ton kartof, 17928 ton tərəvəz, 609 ton bostan məhsulları, 3971 ton qarğıdalı dəni və 58 ton günəbaxan tumu istehsal olunmuşdur.

Qeyd etmək lazımdır ki, rayonda əkin sahələrinin suvarma suyuna olan tələbatının ödənilməsi və suvarılan sahələrin daha da genişləndirilməsi istiqamətində xeyli iş aparılmalıdır. Yengicə su anbarının tikintisi başa çatdıqdan sonra bu sahədəki problemlərin həllində əsaslı dönüş olacaq. Su anbarından 2 istiqamətdə - Hacıalılı və Məlikli kəndləri istiqamətində beton suvarma kanalları çəkiləcək və həmin su anbarı 10.000 hektar ərazinin suya olan tələbatını ödəyəcəkdir.

Rayon üçün meyvəçilik və üzümçülük də önəmli sahələrdən hesab edilir. Hazırda rayonda 6854 hektar bağ sahələri, 509 hektar üzüm plantasiyaları mövcuddur. Həm əhalinin həmin məhsullara olan tələbatının ödənməsi istiqamətində, həm də rayonda həmin sahələrin məhsullarını emal edən sənaye müəssisələrinin xammalla təmin edilməsi baxımından meyvə və üzüm sahələrinin genişlənməsinə və məhsuldarlığının yüksəldilməsinə diqqət artırılmalıdır.

Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında cənab İlham Əliyevin qeyd etdiyi kimi indi kənd təsərrüfatının hər bir sahəsinin inkişaf etdirilməsi bizim üçün vacibdir. Xüsusilə ixrac yönümlü kənd təsərrüfatı məhsulları istehsalının artırılması diqqət mərkəzində saxlanmalıdır.

Bu baxımdan fındıqçılığın mühüm əhəmiyyət kəsb etməsini nəzərə alaraq rayonumuzda bu ildən etibarən əlavə 2000 hektar yeni fındıq bağlarının salınması nəzərdə tutulmuşdur. Artıq bu istiqamətdə işlərə başlanılmış və rayonda 700 hektar yeni fındıq bağları salınmışdır.

Keçən il uzun fasilədən sonra rayonumuzda barama istehsalına başlanılmış və kümçülərimiz tərəfindən kiloqramı 8 manatdan 389 kq barama istehsal edilərək satılmışdır. Barama istehsalının artırılması məqsədi ilə 2016-cı ildə Çin Xalq Respublikasından 20000, İran İslam Respublikasından 42900, qonşu rayonlardan 4000, Ekologiya və Təbii Sərvətlər Nazirliyi xətti ilə 1500 və fərdi təsərrüfatlardan 3000 ədəd tut tingləri əldə olunaraq aqrotexniki qaydalara uyğun əkilmişdir. Bu gələcəkdə bizə barama istehsalının artırılmasına stimul verəcəkdir.



*“Multikulturalizmin Azərbaycan modeli: dünyanın mükəmməl nümunəsi” mövzusunda keçirilən konfransa həsr olunmuş kitab sərgisi.*

Məlum olduğu kimi yüksək məhsuldarlığın əldə olunmasında reproduksiyalı toxum mühüm rol oynayır. Rayonda fəaliyyət göstərən 5 özəl toxumçuluq təsərrüfatlarının toxumluq əkin sahələrindən 1845 ton, o cümlədən 1222 ton buğda və 623 ton yüksək kondisiyalı arpa toxumu istehsal olunaraq taxılçılara satılmışdır.

2016-cı il ərzində Dövlət Meşə Fondu torpaqlarında 60 hektar meşə əkini aparılmışdır. O cümlədən 25 hektar ərazidə az qiymətli və aşağı məhsuldar meşələr bərpa edilmişdir. Ötən il 5236 kiloqram ağac və kol cinslərinin toxumları tədarük olunmuşdur ki, bunun 1621 kiloqramı tingliyə səpilmiş, 3615 kiloqramı isə meşə səpininə sərf olmuşdur.

Hazırda rayonda 2 böyük və 2 kiçik həcmli aqroservis müəssisəsi fəaliyyət göstərir. Bundan əlavə 410 fiziki şəxsdə müxtəlif kənd təsərrüfatı maşınları vardır. Bütövlükdə rayonda 72 ədəd taxılyığan kombayn, 29 ədəd tırtıllı və 417 ədəd təkərli traktor, 24 ədəd buldozer, 44 ədəd ekskovator və s. kənd təsərrüfatı texnikası vardır. Kənd təsərrüfatı texnikası parkı daim təzələnir.

Rayonumuzda heyvandarlıq sahəsində də əhəmiyyətli dirçəliş hiss edilir. Hazırda rayon üzrə iri buynuzlu mal-qaranın sayı 46572, qoyun-keçilərin sayı 201427, donuzların sayı 1098, quşların sayı isə 320165 başdır. Keçən ilin müvafiq dövrü ilə müqayisədə heyvandarlıq məhsulları istehsalı xeyli artmışdır. Belə ki, ət istehsalı (diri çəkidə) 6332 tona, süd istehsalı 38856 tona, yumurta istehsalı 10401 min ədədə, yun istehsalı isə 463 tona çatdırılmışdır.



*Qəbələ VIII Beynəlxalq Musiqi Festivalı.*

Rayonumuzda 2 müasir heyvandarlıq kompleksinin və 2 ədəd kiçik həcmli heyvandarlıq təsərrüfatının fəaliyyətə başlaması ilə əlaqədar əhalinin ətə və südə olan tələbatının ödənməsində müsbət dəyişikliklər baş vermişdir. Həm sanitariya- gigiyena, həm də baytarlıq nəzarəti baxımından mərkəzləşdirilmiş ət kəsimi məntəqəsinin yaradılması nəzərdə tutulmuşdur.

(Ardı 9-cu səhifədə).